6 Mülki müdafiə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsini bacarmaq. FH-in nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək.
Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq.

**ATM-B00 Ali təhsil müəssisəsi tətərindən müəyyən edilən fənlər**

**ATM-B01 I Blok**

**ATM-B01 1.Biznes təhlükəsizliyi**
1. Biznesin təhlükəsizliyinin təmin olunması və biznes fəaliyyətinin səmərəli aparilması haqqında zəruri biliklərin mənimsənilməsi
2. Biznesdə təhlükəsizlik və risklər anlayışı barədə ümumi biliklərin formalaşdırılması və metodunu xarakterizə edən cəhətlərin əhəmiyyəti. Risklərin idarəedilməsində statistik və ekspert üsullarının tətbiqi.
3. Müəssisənin iqtisadi inkişafına mane olan və ziyan vuran amillərin vaxtında aşkara çıxarılması iqtisadi kəşfiyyat və daxili əkskəşfiyyat ilə təhlükəsizliyin təmin edilməsinə nail olmaq bacarığı
4. Biznes informasiyalarının və layihələrinin idarə edilməsi üzrə məlumatlı olmalı və biznes proseslərinin idarə edilməsi baxımından risklərin azaldılmasına onların təsiri
5. Biznes fəaliyyətində kommersiya sirri və onun qorunması sahəsində işin təşkili ilə bağlı baza bilikləri. Biznesin təhlükəsizliyinin təmin edilməsində iştirak edən qruplar, təşkilatlar və institutlar.
6. Ərzaq, enerji, ekoloji təhlükəsizliyinin təmin edilməsində yeni texnologiyaların müasir vəziyyətinin müqayisəli şəkildə tədqiq edilməsi və işin nəticələrini biznes standartları çərçivəsində təqdim etmə bacarığı

**ATM-B01 2.Beynəlxalq biznes**
1.Beynəlxalq biznesə aid anlayışları izah edə biləcəklər. Qloballaşma prosesinin bazarların və müəssisələrin beynəlmiləşməsini necə təsir etdiyini təsvir edə biləcəklər
2.Beynəlxalq biznesin formaları – məhsul və xidmətlərin ixrac və idxalı, innovasiya elmi, texniki, sənaye, istehsalın təşkili, marketinq, ticarət, satış və xidmət fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlıq, müştərək sahibkarlıq fəaliyyəti haqqında biliklərə sahib olacaqlar.
3.Beynəlxalq biznes, xarici bazarlarda fəaliyyət göstərməyin yolları və strategiyaları ilə bağlı biliklərə sahib olmaq bacarığı formalaşır
4.Biznes proseslərinin idarə edilməsi üzrə məhsulun reallaşdırılması, istehsal və idarəetmənin təşkili sahəsində injiniriq tövsiyələri. Çoxmilli kompaniyalar onlara aid nəzəriyyələr haqqında biliklərə sahib olacaqlar.

5.Beynəlxalq idarəetmə və keyfiyyət sertifikatları ilə bağlı nəzəri və praktiki bilikləri sahib olmaq bacarığı formalaşdırılır
6.Dünya bazarında konyukturanın təhlili, Azərbaycana xarici investisiyaların cəlb edilməsi, ölkəmizdə və dünyada biznesin müasir vəziyyətinin müqayisəli şəkildə tədqiq edilir
7.Beynəlxalq biznesin inkişaf istiqamətləri barədə ümumi biliklərin formalaşdırılması və metodunu xarakterizə edən cəhətlərin əhəmiyyəti aşılanır
8.Biznesin təşkili və strateji fəaliyyəti ilə bağlı aiddiyyəti orqanlarla qarşılıqlı əlaqələr qura bilmək, zəruri sənədlərin hazırlanması və təqdim olunması qaydalarından məlumatlı olurlar
9.Beynəlxalq biznes fəaliyyəti üzrə plan və proqnoz göstəricilərinin təhlili üçün hazırlıq işləri aparmaq onları əsaslandırmaq və işin nəticələrini biznes standartları çərçivəsində təqdim etmə bacarığı formalaşır.
10.Beynəlxalq şirkətlər, onların idarə edilməsi, inkişafı və beynəlxalq rəqabət aparması metodları haqqında eləcə beynəlxalq istehsalın təşkili və beynəlxalq təchizat zəncirlərinə inteqrasiya metodları haqqında biliklərə sahib olmaq bacarığı formalaşır

**ATM-B02 II Blok**

**ATM-B02 1.vergilər və vergitutma**
1.Vergitutmaya dair nəzəri biliklərdən istifadə etməklə vergi sistemi və vergi siyasətini təhlil etməyi bacaracaqlar
2.Azərbaycan Respublikasının Vergi qanunvericiliyi ilə bağlı baza biliklərə malik olacaqlar
3.Vergi sisteminin fəaliyyəti və əhatə dairəsi, vergi ödəyicisinin hüquqları və öhdəlikləri haqqında biliklərə malik olacaqlar
4.Fiziki şəxslərin gəlir vergisi üzrə vergi öhdəliklərini hesablamağı bacaracaqlar
5.Hüquqi şəxslərin mənfəət vergisi üzrə vergi öhdəliklərini hesablamagı bacaracaqlar
6.Əlavə dəyər vergisinin (ƏDV) və digər dolayı vergilərin müəssisələrə təsirini izah etməyi və ƏDV və digər dolayı vergi növləri üzrə müəssisənin vergi öhdəliklərini hesablamağı bacaracaqlar
7.Vergi tənzimlənməsi sistemlərinə riayət etməyi, müvafiq vergi hesablaması və planlaşdırma üsullarından istifadə etməklə fiziki şəxslər və hüquqi şəxslər üçün vergi öhdəliklərini hesablamaq və etik qaydada idarə etmək bacarığına malik olacaqlar.

**ATM-B02 2.Vergi inzibatçılığı**
1.Mövcud normativ-hüquqi bazaya əsaslanaraq vergi orqanlarının fəaliyyətini xarakterizə edən sosial-iqtisadi ğostəriciləri müəyyən etməyi bacaracaqlar
2.Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasətinin səmərəliliyinin müəyyən edilməsi üçün zəruri olan məlumatları toplamağı, təhlil və emal etməyi bacaracaqlar
3.Vergi orqanlarının vergi hesabatı sistemindən sərbəst istifadə etməyi,

kargüzarlıq və koordinasiya işlərini aparmağı bacaracaqlar
4.Vergi inzibatçılığı sistemində uçot-analitik informasiya bazasını yaratmağı bacaracaqlar
5.Vergi orqanlarında kameral və səyyar vergi yoxlamalarının aparılması üzrə işləri və operativ vergi nəzarətini təşkil etməyi bacaracaqla
6.Vergi orqanlarında vergi ödəyiciləri ilə işin təşkil edilməsini və vergi orqanlarının fəaliyyətinin keyfiyyətinin qiymətləndirilməsini bacaracaqlar
7.Vergi orqanlarında insan resurslarının inkişafı və beynəlxalq münasibətlər sahəsində işlərin təşkili xüsusiyyətlərini mənimsəyəcəklər

**ATM-B02 3. Gömrük işi**

1. AR-da gömrük işinin təşkili və gömrük siyasəti sahəsində baş verən prosesləri qiymətlən-
dirməyi bacarmalıdır.
2. Gömrük nəzarətinin formaları, nəzarət üçün tələb olunan sənədlər, gömrük rejimləri və
gömrük rəsmiləşdirilməsinin aparılması sahəsində fəaliyyəti həyata keçirməyi bacarmalıdır.
3. Gömrük dəyərinin təyin edilməsi üsullarından istifadə etməyi, gömrük ödənişlərinin
hesablanması və tutulması qaydalarını bacarmalıdır.
4. Xarici-iqtisadi fəaliyyətin gömrük-tarif və qeyri-tarif tənzimlənməsini həyata keçirmə-
yi,valyutaya nəzarəti aparmağı bacarmalıdır.
5. Gömrük işində statistik və iqtisadi təhlil metodlarından istifadə etməyi, gömrük orqanlarının hüquq-mühafizəfəaliyyəti sahəsində əməliyyatlarını fərqləndirməyi bacarmalıdır.
6. Gömrük orqanlarında idarəetmənin əsaslarını tətbiq etməyi, gömrük sistemində idarəet-
mənin təşkilatı strukturlarının fəaliyyətini və idarəetmə prosesini qiymətləndirməyi bacarmalıdır.

**ATM-B03 III Blok**

**ATM-B03 1. Bank işi**

1. Bank işi ilə bağlı tədqiqatlarda bank sistemlərinin meydana gəlməsi şəraiti, onları doğuran tarix, ictimai, iqtisadi zərurət, həmçiin onların nkişaf mərhələləri və bu kimi digər vacib məsələlər öz əksini tapmışdır.
2. Mərkəzi bankların bank sistemi ilə qarşılıqlı münasibətini Mərkəzi Bank fəaliyyəti haqqındakı qanunla yanaşı bank fəaliyyəti haqqında qanunda tənzimləyir. Bu qanun mərkəzi banklarla münasibətdə ölkədə mövcud kredit institutlarının hüquq və vəzifələrini müəyyənləşdirir.
3 Kommersiya bankları haqqında məlumat, onun yaradılması qaydaları, təşkilati strukturu, kommersiya banklarının ümumi xarakteristikasını və orada həyata keçirilən əməliyyatları izah edir.
4. Bankın aktiv və passiv əməliyyatlarını izah edir
5. Kassa əməliyyatları haqqında əsas anlayışları, kassanın növlərini və kassa

qovşağının qorunması üçün lazım olan bütün biliklərə yiyələnməyi izah edir.
6. Real vaxt rejimində banklararası, Ümumdünya banklararası ödəniş sistemi, hesablaşmaların təşkili, ödəniş tapşırığı üzrə sənədləri izah edir.
7. Kreditləşmənin iqtisadi əhəmiyyətini, kreditin verilmə qaydasını, növlərini, müddətini izah edir.
8. Banklarda hesablaşmaların təşkilini və plastik kartların növlərini, nağd və nağdsız hesablaşmaları izah edir.
9. Banklarda vasitəçilik əməliyyatlarını və onların iqtisadi əhəmiyyətini izah edir.
10. Banklarda valyuta əməliyyatlarını, banklarda likvidlik və ona nəzarət, banklarda rislər, uçot və s. əməliyyatları izah edir

**ATM-B03 2. Pul və banklar**

1 Pulun mahiyyətini, funksiyalarını və zəruriliyini anlamaq, pul sisteminin növlərini və pul siyasətinin əsas istiqamətlərini dərk etmək və izah edə bilmək;
2 Bank sisteminin mahiyyətini və strukturunu anlamaq, bankların fəaliyyətinin əsas məzmununu dərk etmək;
3 Müştərilərə hesablaşma-kassa xidmətlərini, banklararası hesablaşmaları, ixrac-idxal əməliyyatları üzrə hesablaşmaları həyata keçirmək bacarığı; - Müştərilərin kredit qabiliyyətini qiymətləndirmək, kreditlərin verilməsi və saxlanmasını həyata keçirmək və emal etmək, banklararası kredit bazarında əməliyyatlar aparmaq, məqsədli ehtiyatları formalaşdırmaq və tənzimləmək bacarığı;
4 Qiymətli kağızların növlərini tanımaq, onlarla aktiv-passiv və vasitəçi əməliyyatlar aparmaq bacarığı;
5 Azərbaycan Mərkəzi Bankının hesabatları ilə tanış olmaq və onları təhlil etmək bacarığı;
6. Kredit təşkilatlarının əmlakının, gəlirlərinin, xərclərinin və fəaliyyətinin nəticələrinin, vergilərin ödənilməsinin uçotunu aparmaq və maliyyə hesabatlarını hazırlamaq bacarığı.

**ATM-B03 3. Rəqabət və riskqin idarə edilməsi**

1 Maliyyə risklərinin idarəedilməsi sahəsində biliklərdən istifadə etmək bacarığına
2 risklərin idarə olunmasının nəzəri-metodoloji əsaslarını mənimsəmək;
3 Risklərin idarə olunmasında beynəlxalq təcrübədən istifadə olunmasını bacarmaq;
4 Ümumi riskin ölçülməsi göstəriciləri funksiyalarını mənimsəmək;
5 Risklərin qiymətləndirilməsi metodlarının ümumi qaydalarını mənimsəmək;
6 Maliyyə riski və beynəlxalq maliyyə riski idarəedilməsi haqqında biliklərdən istifadə etmək bacarığına

**ATM-B04 IV Blok**

**ATM-B04 1. Marketinq**

1. Bütün sahələrdə marketinq aspektləri üzrə effektiv qərarlar qəbul etmək, həmçinin onları əlverişli formada reallaşdırmaq bacarığına malik olmaları;

2. Müəssisənin fəaliyyət göstərdiyi bazara dair geniş spektrli informasiyaların əldə edilməsi və onların sistemləşdirilməsi haqqında biliklərin öyrənilməsi.
3. Marketinq təhlilinin və tədqiqatın aparılmasının elmi-metodiki əsaslarını öyrənilməsi;
4. Bazar araşdırması və bazar araşdırması üzrə tətbiq olunacaq metodologiyaları və tətbiq qaydalarının mənimsənilməsi;
5. Qiymətləndirmə strategiyaları, qiymət və qiymətin formalaşması ilə bərabər tələbə bölüşdürmə, bölüşdürmə formaları, kanalları pərakəndə və toptançılar haqqında biliklərin verilməsi.
6. İstehlakçı davranışları, strateji marketinq, marketinqdə etika, marketinqdə müasir yanaşmalar haqqında ilkin məlumatların əldə edilməsi.

**ATM-B04 2. Marketinq tədqiqatları**

1. Marketinq tədqiqatları marketinqin mahiyyətini, onun planlaşdırılması və idarəetmə strukturlarının təşkili məsələlərini, marketinq tədqiqatlarının aparılması mexanizmini, məhsulların bölüşdürülməsi və satışını, marketinqdə nəzarət sistemini ümumi şəkildə əhatə etməsidir.
2. Prob¬lemin mahiyyətinin və qoyuluşunun düzgün başa düşülməsi və dəqiqləş¬di¬ril¬məsi tədqiqatçıya həll edilməsi tələb olunan problemi tədqiqat tələb edən probl-emə çevirməyə imkan verməsi. Bundan sonra tədqiqatçı tədqiqatın məqsədini müəyyənləşdirir və onu sifarişçi ilə razılaşdıqdan sonra tədqiqatın aparı¬lması pla¬nını tərtib edilməsi.
3. Marketinq tələbatların ödənilməsi üçün «faydalıqlar» yaratmaqla, istehlakçılara istədikləri zaman və istədikləri məkanda konkret məhsula sahib olmağa imkan verməsi.
4. Marketinq bazar subyektlərinin təsərrüfat fəaliyyətinin effektiv şəkildə həyata keçirilməsini təmin edən ən universal sistem bacarığı olması.
5. Müəssisənin istehsal və tədavül xərcləri, məhsulların qiymətinin səviyyəsi, istehlakçıların müəssisənin və rəqib müəssisələrin məhsullarının qiyməti münasibəti, qiymətin elastikliyi və qiymətə təsir edən digər amillər haqqında informasiya toplanılır və təhlil edilməsi.
6. Satışın həvəsləndirilməsi və reklam fəaliyyətinin tədqiqi prosesində istehlakçılara və alıcılara təsir etmə metod və formaları, reklam kampaniyasına münasibəti, reklam elanlarının məzmunu, onların verilmə və yayılması vasitələri,vasitəçilərə və satıcı heyətinin işinə təsir etmə səviyyəsi və s. təhlil edilməsi.

**ATM-B04 3. Marketinq menecmenti**

1.Strategiyanın işlənib hazırlanması və həyata keçirilməsində marketinqin rolunu bilməlidir.
2.Firma və şirkətlərin marketinq qərarlarının və marketinq strategiyalarının qəbul edilməsi səviyyəsini bilməlidir.
3.İişgüzar bazarlarda marketinq proseslərinin həyata keçirilməsi ardıcıllığını,firmalarda marketinqin planlaşdırılması prosesini bilir.
4.Təsərrüfat subyektlərində marketinqin təşkili, funksiyaları və nəzarəti formalarını bilməlidir.

5.Empirik informasiyaların sistemləşdirilməsi və emalını, idarəetmə məsələlərin həlli üçün marketinq metodlarından istifadəni bacarmalıdırі.
6.Bazarın və konkret sahənin marketinq təhlilinin aparılmasını bacarmalıdır.

**ATM-B05 V Blok**

**ATM-B05 1 Muhasibat uçotu**
1.Mühasibat uçotu prinsiplərini tətbiq edir və mühasibat sisteminin müxtəlif bölmələrinin qarşılığlı əlaqəsini izah edir;
2.Mühasibat uçotu qaydalarının təsirini izah edir və şirkət hesablarının əsas bazasını hazırlayır
3.Maliyyə hesabatlarının elementlərini, ikili yazılış sistemini və yoxlama balansını bilir
4.Özəl və ictimai məhdud şirkətlər arasındakı fərqi izah edir, istehsalçılar və xidmət təminatçıları üçün şirkət hesablarının əsas bazasını hazırlayır
5.Mühasibat düzəlişləri daxil olmaqla sadə illik maliyyə hesabatlarını hazırlayır, təşkilatlarının yekun hesabatlarını tətbiq edir
6.Əsas nisbətlərdən və mühasibat uçotunun digər metodlarından istifadə edib maliyyə nəticələrini təhlil edir.

**ATM-B05 2.Maliyyə uçotu**
1.Maliyyə hesabatlarının hazırlanmasının məzmununu və məqsədini təsvir və izah etmək
2.Maliyyə məlumatlarının keyfiyyət göstəriciləri və maliyyə uçotunun fundamental əsaslarının öyrənilməsi
3.İkili mühasibat və mühasibat uçotu sistemlərinin mahiyyəti və məqsədlərini təsvir etmək
4.Əməliyyatların və hadisələrin uçotu və səhvlərin müəyyələşdirilməsi və düzəldilməsi daxil omaqla ilkin balansın hazırlanması və qiymətləndirilməsi üzrə biliklərin nümayiş etdirilməsi
5.Əsas maliyyə hesabatlarının hazırlanması və təqdim olunması
6.Sadə tərkibli konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına dair biliklərin əldə edilməsi. Maliyyə hesabatlarının təhlili metodlarının izahı.

**ATM-B05 3.İdarəetmə uçotu**
1.İdarəetmə və informasiya, onların qarşılıqlı əlaqəsi və asılılığını öyrənmək. Maliyyə uçotu və idarəetmə uçotu, onların müqayisəli xarakteristikası, fərqli və oxşar cəhətlərini araşdırmaq. Həmçinin, strateji qərarların qəbul edilməsində strateji idarəetmə uçotunun rolu və əhəmiyyəti.
2.Gəlirlərlə xərclərin uyğunlşdırılması və müqayisə edilməsi, Malyyə uçotu və idarəetmə uçotu sistemində xərclərin təsnifatı. İstehsal xərclərinin ümumiləşdirilməsi qaydaları və icmal uçotunun əhəmiyyətini öyrənməkdir.
3.Kalkulyasiyalaşdırılmanın mahiyyəti, məzmunu və məqsədlərini dərk etmək. İdarəetmə uçotu çərçivəsində kalkulyasiyalaşdırma sistemi, onun təsnifatını təqdim etməkdir.

4.Direkt-kostinq sistemi, onun mahiyyəti və məzmununu öyrənmək. Direkt-kostinq sisteminin üstünlükləri və çatışmayan cəhətlərini dərk etməkdir.
5. İdarəetmə qərarlarının qəbul edilməsi və yerinə yetirilməsi mərhələsində yeni metodların tətbiqi, yeni sxemlərlə iş prinsipi və risk şəraitində qərarların qəbul edilməsi.
6.Büdcəyə nəzarət və strateji, taktiki və əməliyyat büdcələrinin qarçılıqlı əlaqəsi prosedurlarını mənimsəməkdir.

**ATM-B06 VI Blok**

**ATM-B06 1. Sığorta işi**
1.Sığortaçının formalaşdırdığı sığorta ehtiyatları ; - sığorta bazarı və rəqabət.
2.Sığortanın təşkilati formaları; sığorta xidməti marketinqinin əsas elementləri.
3.Sığorta şirkətinin marketinq və menecment fəaliyyətinin əlaqəsi .
4.Sığorta üzrə təminat fondu, onun məqsədi və funksiyaları .
5.Sığortaçıların maliyyə sabitliyinin itirilməsinin əsas mərhələləri .
6.Sığorta şirkətinin strateji alternativləri ; - sığorta işində pul axınlarının maliyyə planlaşdırlması xüsusiyyətləri.

**ATM-B06 2. Birja işi**
1.Beynəlxalq əmtəə birjalarının dünya əmtəə bazarının bir növü kimi ticarətdə əhəmiyyətini bilmək.
2.Əmtəə birjaları və hərracların təşkil və idarəedilməsində dünya təcrübəsi.
3.Maliyyə bazarları, qiymətli kağızlar , valyuta və fond birjalarının öyrənilməsinin əhəmiyyətini dərk etmək.
4.Əmək birjalarının təşkili, fyuçers və opsion birjalarının inkişaf dinamikası göstəricilərini müqayisəli şəkildə təhlil etməyi bacarmaq.
5.Birja və həraclarda kommersiya əməliyyatları üsullarına yiyələnmək.
6.Birjaların marketinqi və menecmenti, Azərbaycan Respublikasında birja və hərracların inkişafı perspektivlərinin təhlil etməyi bacarmaq.

**ATM-B06 3. Biznes və reklam**
1. İrəlilətmə (Promotion) anlayışının izah edilməsi və kommunikasiya anlayışına keçid haqqında biliklərin öyrədilməsi.
2. Kommunikasiya modellərinin (Ümumi, AIDA, NAIDAS və.s) qurulması, formalaşdırılması və fərqlərinin izah edilməsi.
3. Reklamın tərifi, məqsədləri, reklam formaları haqqında baza biliklərin verilməsi.
4. Müxtəlif media vasitələri ilə ənənəvi və rəqəmsal reklamların həyata keçirilməsi haqqında biliklərin verilməsi.
5. Reklamın performansının ölçülməsi və dəyərləndirmə metodları, bu sahəyə aid bir sıra metriklərin öyrədilməsi, büdcələmə prosesinin icrası.
6. Bir məhsulun brendinq, reklam və kommunikasiya strategiyanın formalaşdırılması, reklam filminin çəkilməsi və təqdim edilməsi.

**ATM-B07 VİI Blok**

**ATM-B07 1. Maliyyə**

1.Dövlətin maliyyə siyasətinin reallaşmasının izah etmək bacarığına Ölkənin pul vəsaitləri fondlarının yaradılması,formalaşması ,bölgüsü və istifadəsi ilə əlaqədar maliyyə münasibətləri sistemini izah etmək bacarığına
2.Müəssisə və təşkilatların maliyyəsi – maliyyə sisteminin əsas sferası olmasını təhlil etmək bacarığı
3.Dövlət büdcəsi,büdcə sistemi büdcədənkənar fondlar haqqında biliklərə malik olmaq, büdcə prosesini bilmək və büdcə hesabatlarını təhlil etmək bacarığına Sığorta istehsal münasibətlərinin və yenidən bölgü münasibətlərinin elementi olmasını izah etmək bacarığı
4.Maliyyə bazarlarının mahiyyətini.funksiyalarını izah etmək bacarığı Ev təsərrüfatları maliyyəsi iqtisadi münasibətlərin subyekti kimi olmasını izah etmək bacarığı
5.Beynəlxalq ticarətin inkişafında maliyyənin rolunu izah etmək bacarığı

**ATM-B07 2.Maliyyə biznesi**

1. Müvafıq analitik keyfıyyət və kəmiyyət metodlarından istifadə etməklə biznes aktivlərinin qiymətləndirmək, kapital layihələri və investisiyalar barədə məsləhətlər vermək bacarığına.
2. Alternativ maliyyə mənbələrini və maliyyələşmənin müxtəlif yollarını müəyyənləşdirmək və qiymətləndirmələr etmək bacarığına.
3. Maliyyə imkanlarını artırmaq üçün alternativ maliyyə mənbələrini aşkar etmək, təhlil etmək və müvafıq tövsiyələr vermək bacarığına.
4. Maliyyə qərarlarının qəbul edilməsində tənzimləmə, idarəetmə və etika sahəsindəki mövcud dəyişiklər barəsində məlumatlı olmaq və yeni tövsiyələr hazırlamaq bacarığına
5. Biznes və maliyyə riski ilə əlaqəli biznes fəaliyyətinin idarə edilməsində müvafıq strategiyaları təhlil etmək və baş verə biləcək təsirlər barədə tövsiyələr vermək bacarığına.
6. Əlavə dəyər yaratmaq məqsədilə investisiya qiymətləndirilməsi, biznesin yenidən təşkili, vergilərin və risklərin idarə edilməsi, xəzinə və dövriyyə kapitalının idarə edilməsi bacarığına.

**ATM-B07 3.Maliyyə bazarları**

1.Maliyyə bazarlarının məzmununu, funksiyalarını, inkişafını, peşəkar iştirakşılaını, vasitəçiləri haqqında bilgilərini zənginləşdirir,
2.Milli gəlir- pul gəlirləri anlayışını, ev təsərrüfatı və fərdi sahibkarların maliyyə resurslarını, valyuta bazarlarında əməliyyatlar haqqında bilgilərə malik olacaq,
3.Qızıl bazarını, Azərbayn bazarında qızılın qiymətinin müəyyən edilməsi, kapital bazarı ilə pul bazarının fərqini, ABŞ, Qərbi Avropa ölkələri və Yaponiyanın elastik və güclü borc kapital bazarlarını müqayisəli təhlil etmək,
4.Kredit bazarını, qiymətli kağızların mənası, məqsəd və vəzifələri, həmçinin xüsusiyyətləri haqqında anlayışa malik olmaq;
5.Fond birjası, birja əqdləri, Azərbaycanda sığorta bazarının dövlət tənzimlənməsini və hazırki vəziyyəti haqqında araşdırmalar aparmaq,

6.Maliyyə bazarlarının tərkibində olan digər bazarlar haqqında lazımi informasiyalara sahib olmaq, ipoteka, lizinq və Dnüya maliyyə bazarları haqqında məlumatlara yiyələnmək.

**ATM-B08 VİİI Blok**

**ATM-B08 1. Firmanın iqtisadiyyatı**

1.Firmanın istehsal –təsərrüfat fəaliyyəti ilə əlaqədar qərarların qəbul edilməsi mexanizminə yiyələnəcəklər .
2.Firmanın maddi – texniki təminat bazasının yaradılması və ondan səmərəli istifadə edilməsi uollarını öyrənəcəkələr.
3.Firmanın əmək resurslarının insanlar və qeyri istehsal heyətinin səmərəli idarə edilməsi mexanizminə yiyələnəcəklər.
4.Firmanın qiymət siyasətinin səmərəli strategiyasına nail olacaqlar.
5.Firma tərəfindən istehsal olunan məhsulların keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi yollarlını öyrənəcəkələr və bu əsasda məhsulların standartlaşdırılması,sertifikatlaşdırılması ilə bağlı problemlərin həlli yollarını mənimsəyəcəklər.
6.Beynəlxalq standartlara cavab verən texnologiyaların istehsala tətbiqi yollarını öyrənəcək və bu əsasda iş aparmaq qabiliyyətinə yiyələnəcəklər

**ATM-B08 2. Ətraf mühitin iqtisadiyyatı**

1.Ətraf mühitin iqtisadiyyatının əsasları. Ətraf mühitin iqtisadiyyati fənninin predmeti, metodu, tədqiqat üsullari və vəzifələri. Təbiətdən istifadə qanunlari və üsullari.
2.Torpaqlarin iqtisadi qiymətləndirilməsi. Litosferi çirkləndirən mənbələr, onlarin ətraf mühitə zərərli təsiri və mühafizə tədbirləri.
3.İqtisadiyyatin inkişafinda məhsuldar qüvvələrinin yerləşdirilməsinin yeri və rolu. Bəşəriyyətin sosial problemlərinin ekoloji aspektləri.
4.Təbii ehtiyatlarin iqtisadi qiymətləndirilməsi. İnsanin ətraf mühitə təsiri. Qlobal problemlər.
5.Təbii ehtiyatlarin istismari zamani ətraf mühitə dəyən zərərin hesablanmasi. Təbiətdən istifadəyə və çirklənməyə görə ödənişlər.
6.Bazar iqtisadiyyati və onun mahiyyəti. Azərbaycan respublikasinda bazar iqtisadiyyatina keçid, onun vəzifələri və xüsusiyyətləri. Ətraf mühitin mühafizəsində dövlət və bazarin rolu.

**ATM-B08 3. Dünya iqtisadiyyatı**

1.Dünya iqtisadiyyat dünya təsərrüfatçılıq sisteminin meydana gəlməsini, dünya ölkələrinin iqtisadi inkişaf səviyyəsini, onların iqtisadi cəhətdən bir-birinə yaxınlaşması istiqamətlərini, azad iqtisadi zonaların yaranma səbəbini
2.Kapitalın təmərkzləşməsi, inhisarçı birliklərin formalşması, TMŞ –in və bankların yaranması, iqtiadi inteqrasiyanı, kəmiyət və keyfiyyət formalarını analiz etməyi
3.Dünyanın demoqrafik inkişafıi, İEOÖ və İEÖ demoqrafiya siyasətini, iqtisadi artım problermlərini təhlil etməyi;

4.Cəmiyyətin inkişafında kənd təsərrüfatının rolunu, aqrar sənaye komplekslərini, beynəlxalq texnologiya mübadiləsinin əsas formalarını
5.Ərzaq təhlükısizliyinin təmin olunmasında ictimai nəzəri və əməli problemlər haqqında, qlobal ekoloji problemlərin həllində beynəlxalq əməkdaşlığın əsas formalarını və onların təmin edilməsini
6.Dünya iqtisadiyyatının inkişaf modellərinin xüsusiyyətlərini, Liberal model, kooperativ model , sosial bazar modelinin strategiyasını, isethlak və istehsal tələbini araşdırmağı həmçinin təklifin quruluşununu bilməlidirlər.

**ATM-B09 İX Blok**

**ATM-B09 1. Dövlət və bələdiyyə idarəetməsi**
1.Yerli özünüidarəetmənin maliyyə-iqtisadi əsasları:bələdiyyə büdcəsi, büdcə prosesi. Bələdiyyə mülkiyyəti: formalaşması və idarəolunması
2. Azərbaycanda bələdiyyələrin formalaşması və inkişaf problemləri, regionların inkişafında rolu.Yerli özünüidarəetmənin beynəlxalq təcrübəsi və Azərbaycanda istifadəsi. Yerli özünüidarəetmə orqanların kadr təminatı
3 Dövlət idarəçiliyi ilə əlaqəli əsas anlayışları, prinsipləri, nəzəriyyələri, modelləri və paradiqmaları öyrənir və analiz etmək bacarığı qazanılır.
4 Dövlət idarəçiliyində qərarların qəbulu həyata keçirilməsi ilə bağlı bilik və bacarıqlar qazanılır
5 Dövlət idarəçiliyi sahəsində konseptual biliklərə sahib olmaq bu bilikləri dövlət qurumlarında tətbiq etmək bacarığına yiyələnmək.
6 İdarəetmədə qarşıya çıxa biləcək problemləri həm fərqli olaraq,həmdə komanda olaraq təhlil etmək və həllərini hazırlaya bilmək bacarığı.Dövlət idarəçiliyinin səmərəliliyi göstəricilərini təhlil edə bilmək bacarığı

**ATM-B09 1. Dövlət qulluğu**
1. Dövlət qulluğunun əsas anlayışları,prinsipləri,modelləri,nəzəriyyələri və paradiqmaları öyrənir və analiz etmək bacarığı qazanır
2. Dövlət qulluğu sahəsində konseptual biliklərə sahib olmaqla bu bilikləri dövlət qurumlarında tətbiq etmək bacarığı
3. Dövlət qulluğu üzrə qlobal çağırışlar və trendlərin mənimsənilməsi. Dövlət qulluğu sahəsində milli və beynəlxalq səviyyədə nəzəri və praktik yeniliklərin öyrənilməsi və bu sahədə məlumatların müqayisəli şəkildə qiymətləndirilməsi və tətbiq etmə bacarığı
4. Azərbaycan dövlət qulluğu sistemini,digər ölkələrin təcrübələrini,fərqli idarəetmə sahələrində çalışanların (dövlət,özəl,ictimai,yerli özünüidarəetmə) özünəməxsusluqlarını öyrənməklə yanaşı dövlət qulluğunun nəzəri biliklərinə sistemli halda yanaşma bacarığının əldə edilməsi
5. Dövlət qulluğunun səmərəli idarə edilməsinin dövlət idarəçiliyinin mühüm komponenti olduğunu dərk edilməsi
6. Nəzəri və tətbiqi biliklərdən isifadə edərək öz dövlət qulluğu sahəsinə aid hadisələri və faktları elmi metod və üsullarla təhlil edə bilmək

**ATM-B09 2. Dövlət qulluğu etikası**

1.Dövlət idarəçiliyində etik qaydaların tədbiqi üzrə praktiki biliklərə yiyələnməsi və qərar verərkən qarşılaşan dilemmaların həlli ilə bağlı seçin bacarığı.
2.Dövlət idarəçiliyində etik məsələlərə dair alternativ prespektivləri müqayisə etmə bacarığı
3.Dövlət idarəçiliyində etik davranış prinsipləri bu prinsiplərə uyğun hərəkət etmə davranışının formaları.Dövlət qulluğu sistemində mənəvi əxlaq meyyarların rol və yerinin müəyyən etmək bacarığı
4.Dövlət idarəçiliyində nümunəvi davranışı nümayiş etdirmə və uyğun olmayan davranışdan çəkinmə,eləcə də ziddiyyətlərin ortaya çıxdığı məqamlarda qərar qəbul edən və tədbiq edən şəxslərin rolları barədə məlumatlılığın artırılması
5.Dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyi və şəffaflığın artırılmasında dövlət qulluqçularından gözlənilən davranış barədə məlumatlılıq səviyyəsinin artırılması
6.Həm vəzifənin icra edilməsi ilə bağlı cəmiyyət üçün ümumi etik dəyərlər,həm də həmin vəzifə ilə əlaqədar ümumbəşəri qəbul olunmuş bəzi etik prinsip və dəyərləri nəzərə almaq bacarığı

**ATM-B10 X Blok**

**ATM-B10 1. Maliyyə menecmenti**

1. Müvafiq analitik keyfiyyət və kəmiyyət metodlarından istifadə etməklə biznes aktivlərinin qiymətləndirmək, kapital layihələri və investisiyalar barədə məsləhətlər vermək bacarığına
2. Alternativ maliyyə mənbələrini və maliyyələşmənin müxtəlif yollarını müəyyənləşdirmək və qiymətləndirmələr etmək bacarığna
3. Maliyyə imkanlarını artırmaq üçün alternativ maliyyə mənbələrini aşkar etmək, təhlil etmək və müvafiq tövsiyyələr vermək bacarığına
4. Maliyyə qərarlarının qəbul edilməsində tənzimləmə, idarəetmə və etika sahəsindəki mövcud dəyişiklər barəsində məlumatlı olmaq və yeni tövsiyyələr hazırlamaq bacarığına
5. Biznes və maliyyə riski ilə əlaqəli biznes fəaliyyətinin idarə edilməsində müvafiq strategiyaları təhlil etmək və baş verə biləcək təsrilər barədə tövsiyyələr vermək bacarığına
6. Əlavə dəyər yaratmaq məqsədilə investisiya qiymətləndirilməsi, biznesin yenidən təşkili, vergilərin və risklərin idarə edilməsi, xəzinə və dövriyyə kapitalının idarə edilməsi bacarığına.

**ATM-B10 2. Qiymətli kağızlar bazarı**

1.Qiymətli kağızların müxtəlif meyarlar üzrə təsnifləşdirilməsini öyrənəcəklər
2.Ödəniş və əmtəə qiymətli kağızları haqqında biliklərə malik olacaqlar
3.Qiymətli kağızların forması və buraxılış şərtləri haqqında məlumatları təhlil etməyi bacaracaqlar
4.Riskin səviyyəsinə görə qiymətli kağızların mövqelərini müəyyənləşdirməyi öyrənəcəklər
5.Birjada icra olunma müddətinə görə əqdlərin müqayisəli təhlilini aparmağı bacaracaqlar

6.Azərbaycanda qiymətli kağızların inkişaf mərhələlərinin müstəqil surətdə müqayisəli təhlilini aparmağı biləcəklər

**ATM-B10 3. Bank menecmenti**

1.Müxtəlif yanaşmaların müqayisəli təhlili və nəzəri ümumiləşdirilmələrin aparılması metodikasını bilmək.
2.Bank menecmenti inkişaf konsepsiyasını şərh etməyi bilmək.
3.Bank biznesinin maliyyə vəziyyətinin göstəricilərini bilmək.
4.Bank xidmətləri bazarının cari vəziyyətini və tendensiyalarını bilmək.
5.Müasir kredit bazarının konyunkturasını, onu müəyyən edən amillərini təhlilini bilmək.
6.Ölkənin, bölgənin bank sisteminin inkişafının qiymətləndirməsini bilmək.

**ATM-B11 Xİ Blok**

**ATM-B11 1.qiymət və qiymətləndirmə**

1.Qiymət və qiymətin əmələ gəlməsi bazar iqtisadiyyatının əsas elementlərindın biri olmasını izah etmək bacarığı.
2. Qiymət bazar konyukturasının əsas ünsürlərindən biri olduğunu izah etmək bacarığı
3.Xərclərin qiymətin formalaşmasında rolunun olmasını izah etmək bacarığı Bazar iştirakçıları olan istehsalçılar Və istehakçılar son anda qiymət anlayışı adı altında razılaşmalarını iah etmək bacarığı
4.Müasir şəraitdə nəqliyyat,məişət,kommunal xidmətləri ilə əlaqədar qiymətin tənzimlənməsinin zəruriliyi izah etmək bacarığı
5.Xarici ticarətin reallaşmasında qiymətin böyük rolunu izah etmək bacarığı
6.Qiymətin əmələ gəlməsində vergi,pul və kreditin rolu mühüm əhəmiyyət kəsb etməsini izah etmək bacarığı

**ATM-B11 2. Münaqişələrin idarə edilməsi**

1. Biznes təşkilatlarında münaqişələrin təbiətini bilməlidir.
2.Münaqişələrin səbəbləri və onların aradan qaldırılması yollarını bilməlidir.
3.Münaqişə və qeyri münaqişə davranış qanunauyğunluqlarını bilməlidir.
4.Qeyri-standart vəziyyəti idarə etmək imkanları və başqalarına müsbət təsir göstərməyi bilməlidir
5.Təşkilatdaxili münaqişə və müqavimətlərin həll edilməsi strategiyasını bacarmalıdır.
6. Ünsiyyət tərəfdaşların qarşıdurma artmasına aparan davranış nümunələrini tanımağı bacarmalıdır.

**ATM-B11 3. Turizmin əsasları**

1.“Turizm”, “turist”, “səyyah”, “səyahət”, “ziyarətçi”, “ekskursiya”, “xidmət”, “turizm müəssisəsi” və s. əsas anlayışların mahiyyətini dərk etmək, turizmin fəaliyyət növü və mühüm xidmət sahələrindən biri kimi mahiyyətini izah etmək, turizmin iqtisadi, sosial-mədəni, ekoloji, işsizlik və s. kimi müxtəlif problemlərin

həllində əhəmiyyətini əsaslandırmağı bacarmaq;
2.Qonaqpərvərlik ənənələri, onların formalaşma və təkamül tarixini öyrənmək, açıq və qapalı məkanda turizm tələbatlarının təmin edilməsi imkanlarını müəyyən etmək, qonaqpərvərlik ənənələrinin formalaşmasını regional xüsusiyyətlərini və fərqliliklərini mənimsəmək və nəticələrə gəlmək;
3.Turizmin formalaşmasına və inkişafına təsir edən amilləri qruplaşdırmaq və təsnifləşdirmək, turizm motivi yaradan amillərin psixoloji aspektlərini şərh etmək, turizmin inkişafını təmin edən siyasətin əsaslarını müəyyən etmək, turizmin formalarını, növlərini, tiplərini, kateqoriyalarını fərqləndirməyi bacarmaq, yeni turizm növlərinin təşkili üçün təkliflər vermək;
4.Əsas turizm sənayesi sahələrinin funksiyalarını, turizm xidmətlərinin istehsalı və turların formalaşmasında rollarını müəyyən etmək, əsas və əlavə xidmətlər istahsal edən və turizm prosesində bilavasitə və dolayı iştirak edən sahələri fərqləndirmə səriştələrinə yiyələnmək və onların inteqrasiya istiqamətlərini təklif etmək;
5.Turizm məhsulunun formalaşdırılması texnologiyasını mənimsəmək, turizm bazarının spesifik xüsusiyyətlərini fərqləndirə bilmək, yeni məhsul və xidmət texnologiyaları tərtib etməyi bacarmaq;
6.Turizm müəssisə və təşkilatlarının funksiyalarını öyrənmək və fəaliyyətlərini təkmilləşdirmək, tur və marşrutların formalaşdırılmasının innovasiya əsaslarını yaratmaq, xidmət səviyyələrini və personalın davranış və etik mədəniyyətinin formalaşdırılmasını bacarmaq.

**TE-B00 Təcrübə**

1.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.
1.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.
1.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək üçün bu proses aşağıdakı kimi 4 mərhələdə təşkil oluna bilər: 1) tələbə karyera planlaşdırılmasın! doğru tərtib etməyi öyrənməli, 2) eləcə də yumşaq və 3) sərt bacarıqlara yiyələnməli, 4) müəssisə və təşkilatlarda təşcrübə keçməli və ya onlardan daxil olan sifariş layihəsini yerinə yetirməlidir.
1.4. Tələbənin karyera planlaması və yumşaq bacarıqlar fənnlərini mənimsəməsi ona təhsil müddətində özünüinkişaf və fürsətlərin dəyərləndirməsinə imkan yaradacaq. Belə ki, “Karyera planlaması” fənni üzrə kursu mənimsəməklə tələbələr karyera barədə ilkin anlayışları, təhsil müddətində dəyərləndirilməli olan karyera inkişaf fəaliyyətlərini biləcək; karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv- düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün doğru müraciət qaydalarını, peşəkar CV, rezüme, istək və tövsiyə məktublarının hazırlanmasını bacaracaq; iş müsahibəsinə hazırlıq

prosedurlarını və müsahibə texnikalarını anlayacaqdır.

1.5. "Yumşaq bacarıqlar" fənni sayəsində isə tələbə vaxtın effektiv idarə edilməsini, stress menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını biləcək; problem həll etmə və qərarvermə texnikaları, ictimaiyyət qarşısında çıxış, səlis nitqin inkişaf yolları, bədən dili və doğru təqdimat qaydalarını, eləcə də komanda işinin qurulmasını bacaracaq; liderlik haqqında prinsipləri anlayacaqdır.

1.6. Sərt bacarıqlar" fənni tələbələrə iş dünyasında ən çox istifadə edilən excel alətlərindən, layihələrin idarə edilməsində proqram təminatlarından səlis istifadəni bacaracaq; iş həyatında şifahi və yazılı kommunikasiya qaydalarını biləcək; rəqəmsal savadlılıq istiqamətindəki əsas nüansları anlayacaq, şəxsi brendin qurulması yollarını biləcəkdir.

1.7. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. Belə ki. tələbələr şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Təhsil müddətində mənimsənilmiş karyera planlaması, sərt və yumşaq bacarıqlar sayəsində iş dünyasında uğur qazanma ehtimalları yüksək olacaqdır. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

1.8. Təcrübənin təşkili barəsində ikinci forma isə tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, şirkət və qurumlarda ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yollan tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

1.9. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

### TE-B01 Karyera planlaması

1.10. **"050408 - Menecment"** ixtisası üzrə Təhsil Proqramının məzunları həm özəl həm dövlət sektorunda layihə menecmenti, insan resursları menecmenti, ictimaiyyətlə əlaqələr, müştəri əlaqələrinin idarəedilməsi, əməliyyatların idarə edilməsi, satış kimi sahələrdə layihə meneceri, insan resursları meneceri, əməliyyatlar üzrə menecer, satınalmalar üzrə menecer, ictimaiyyətlə əlaqələr üzrə menecer, müştəri əlaqələri üzrə menecer peşələrində işləyə bilərlər. Eyni zamanda sahibkar, dövlət qulluqçusu kimi də fəaliyyət göstərə bilər.

1.11. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

1.12. **"050408 - Menecment"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini

"İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan bütün Magistr proqramlarında davam etdirə bilərlər.

Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Karyera planlanması (FTN)**

1. FTN 1 - Özlərinin güclü və zəif tərəflərini başa düşməklə, şəxsi maraqlarını və dəyərlərini tanıyır, həmçinin, öz potensiallarını müəyyənləşdirir və karyera hədəflərini təyin edə bilir.
2. FTN 2 - Müxtəlif karyera yollarını və fəaliyyət sahələrini dərk edir, onların öz maraqlarına və hədəflərinə uyğunluğunu qiymətləndirə bilir.
3. FTN 3 - Tələbələr qarşıya qoyduqları karyera hədəflərini dəqiqləşdirir və onları həyata keçirmək üçün planlar hazırlayırlaya bilirlər.
4. FTN 4 - Burada özlərinə lazım olan bilik və bacarıqları öyrənir, inkişaf etdirir və onları tətbiq etməyin mexanizmlərinə malik olurlar.
5. FTN 5 - İş axtarışı prosesində effektiv strategiyaları tətbiq etməyi öyrənirlər, CV-lərini hazırlayır və iş müsahibələrinə hazırlaşmaq yollarını bilirlər.

FTN 6 - Karyera planlarını idarə etməyi öyrənirlər, dəyişikliklərə uyğunlaşmaq üçün strategiyalar tətbiq etməyi və inkişaf etdirməyin mexanizmlərini bilirlər

**TE-B02 Yumşaq bacarıqlar**

FTN-1. Geniş çeşidli yumşaq bacarıqların əhəmiyyətini və mahiyyətini, aktuallığını və karyeraya təsirini şərhini edir.
FTN-2. Vaxt - istənilən resursdan qiymətlidir, vaxt töhfədir, işləri necə tamamlamalı, diqqəti necə yönəltməli, düşüncə alətləri ilə enerji tədarükü, detallara diqqət, etibarlılıq,uğur zəncirini və vaxt büdcəsinin mahiyyətini bilir.
FTN-3. Qərar qəbuletmənin əsasları, effektiv şəkildə qəbul edilmiş qərarın faydalarını, arqumenti necə formalaşdırmağı, düzgün seçim etməyi bilirlər.
FTN-4. Münaqişəyə qarşı strategiyalar, stresdən pozitiv məqsədlərə doğru əsas üsulları, özünün və başqalarının hisslərini idarə etməyi bacarır.
FTN-5. Danışıqlar yolu ilə təsir etmək imkanı, ən optimal sazişə nail olmaq üçün taktikalar və təqdimatlar bacarığı, problemlərin kompleks həllini və etibarlı münasibətləri qurmağı bacarır.
FTN-6. Müxtəlif nitq vəziyyətlərində özünəinamlı, təsirli olmağı, tənqidi və analitik düşüncə, təhlil, müzakirə və mülahizələr etmək bacarığını nümayiş etdirir.
FTN-7. Bütün səviyyələrdə – strateji, təşkilati və komanda səviyyələrində çalışan liderlər üçün ruhlandırmağın, təsir göstərməyin, dəyişikliyi idarə etməyin, məqsədlərə çatmağın yollarını müəyyənləşdirə bilir

**Sərt bacarıqlar**

FTN - 1. Rəqəmsal biliklərini fəaliyyət dairəsində tətbiq etməyi bacarmalıdır.
FTN - 2. Təhlil etmə bacarıqlarına, nəzəri biliklərə sahib olmalı.
FTN - 3. Dəyişən bazar tendensiyalarını izləməyi bacarmalı bunun üçün mövcud

resursları tanıya bilməlidir.
FTN - 4. Müasir iş dünyasında tələb olunan layihə idarəetməsi və onun çevik idarəetmə formasını bilməlidir.
FTN - 5. Maliyyə savadlılığına sahib olmalı, pul
ehtiyyatlarının düzgün idarə olunması üçün lazım olan alətləri tanımalıdır.
FTN - 6. Şəxsi brend alətini düzgün qura bilməli və
ondan doğru dürüst istifadə etməyi bilməlidir.
FTN - 7. İstər iş həyatında istərsə öz həyatında daim mentor dəstəyini tapa bilməli və daim bunun üzərində təkmilləşdirmə yollarını bilm